

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 147 (21.299)

*30 iyul 2015-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Muxtar respublikanın nazirlik, komitə və təşkilatlarında cari ilin ilk 6 ayının yekunları müzakirə edilir



Naxçıvan Muxtar Respublikasının Rabitə və Yeni Texnologiyalar Nazirliyində keçirilən kollegiya iclasında çıxış edən Naxçıvan Muxtar Respublikasının Rabitə və Yeni Texnologiyalar naziri Rövşən Məmmədov 21 iyul 2015-ci il tarixdə dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin on birinci sessiyasında verilən tapşırıqların icrasının diqqətdə saxlandığını bildirmişdir. Qeyd olunmuşdur ki, rabitə və poçt xidmətinin, genişzolaqlı və simsiz internetin əhatə dairəsini genişləndirməsi, "Evədək optika" və "Elektron hökumət" layihələrinin icrası gələcəkdə nazirliyin əsas fəaliyyət istiqamətləri kimi müəyyənləşdirilmişdir.

Hesabat dövründə Babək Rayon Rabitə İdarəsi və "Naxçıvanpoçt" MMC-nin Babək rayon filialının yeni binası istifadəyə verilmiş, tikintisi başa çatdırılan 242 kilometrlik Sədərək-Ordubad alternativ fiber-optik kabel magistralının təqdimatı olmuş və Babək rayon telekommunikasiya şəbəkəsinin alternativ fiber-optik kabel magistralına birləşdirən sistem işə salınmışdır. Bəhs olunan dövrdə muxtar respublikada 8 poçt şöbə və bölməsi avtomatlaşdırılmışdır. Ümumilikdə, avtomatlaşdırılmış poçt bölmə və şöbələrinin sayı 126-ya çatdırılmış, muxtar respublika üzrə bütün poçt şöbə və bölmələri POS-terminallarla təmin edilmişdir.

Ötən dövr ərzində bütün yaşayış məntəqələrində genişzolaqlı internet xidmətlərinin təşkil edilməsi üçün tədbirlər davam etdirilmişdir. Genişzolaqlı ADSL texnologiyasından istifadə edən internet abunəçilərinin sayı 2566 olmuş, 42 nəfərə "Elektron imza" verilmişdir.

Təhlükəsiz internet və distant təhsilin tədrisi ilə əlaqədar distant dərslər təşkil edilmiş, muxtar respublikanın orta məktəblərində daxili şəbəkələr qurulmuş və internetə qoşulmuşdur. Muxtar respublika ərazisindəki yaşayış məntəqələrinin 100 faizində rəqəmsal radio yayımı təmin edilmişdir. Bundan əlavə, Naxçıvan televiziyası HD formatda yayıma başlamışdır.

Yaşayış məntəqələrinin 94 faizində genişzolaqlı, 83 faizində isə simsiz internet xidmətlərinin göstərilməsi üçün lazımi avadanlıqlar qurulmuşdur. Optik şəbəkənin genişləndirilməsi evlərə də optik kabelin çəkilməsinə imkan vermişdir. Naxçıvan şəhərində "Evədək optika" layihəsinin icrası davam etdirilmiş, 28 fərdi mənzilə optik kabel xətti çəkilmişdir. Yarımildə Ordubad rayonunun Çənnəb-Üstüpü, Babək rayonunun Nəhəcir, Şərur rayonunun Aşağı Yaycı-Yuxarı Yaycı, Kərimbəyli-Axaməd, Kürkənd-Kürçülü kənd mərkəzlərinə fiber-optik kabel xətləri çəkilmişdir. Ümumilikdə, muxtar respublika üzrə 2015-ci ilin I yarımili ərzində 59 min 192 metr fiber-optik kabel xəttinin tikintisi aparılmışdır.

İşdə yol verilmiş nöqsan və çatışmazlıqlara da toxunan nazir muxtar respublikada rabitə və poçt xidmətlərinin daha da təkmilləşdirilməsi istiqamətində qarşıda duran vəzifələr, ucqar kəndlərin internetlə təmin olunması, elektron ödənişlərin həcminin genişləndirilməsi istiqamətində görülən işlər haqqında danışmış, elektron xidmətlərin sayının artırılması, bu sahədə göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi, müraciətlər əsasında elektron imzaların tətbiqinin həyata keçirilməsinin qarşıda duran vəzifələr arasında olduğunu vurğulamışdır.

* * *

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində keçirilən kollegiya iclasını Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Cavid Səfərov açaraq məruzə ilə çıxış etmişdir.***



Qeyd olunmuşdur ki, "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası istiqamətində bir sıra tədbirlər görülmüşdür. İlin birinci yarısında məşğulluq xidməti orqanlarına müraciət edən 1391 nəfər işlə təmin edilmişdir.

Əmək bazarının tələbinə uyğun olaraq Naxçıvan Regional Peşə Tədris Mərkəzində təşkil edilmiş peşə kurslarına, ümumilikdə, 195 nəfər cəlb edilmişdir ki, onlardan 74-ü sağlamlıq imkanları məhdud şəxslər, 9 nəfəri isə hərbi xidmətdən yeni tərxis olunanlardır. Bununla yanaşı, sosial cəhətdən həssas əhali qruplarının məşğulluğunun təmin edilməsi, habelə fərdi təsərrüfatlarının inkişafı üçün 3 aztəminatlı ailəyə müvafiq köməklik göstərilmiş, həmin ailələrin rifahının yaxşılaşdırılması məqsədilə evlərdə xalça toxunuşunun təşkili üzrə sosial layihəyə 8 qadın cəlb edilmişdir.

Bildirilmişdir ki, əməyin mühafizəsi sahəsində həyata keçirilən nəzarət tədbirləri nəticəsində fərdi və kollektiv mühafizə vasitələrindən istifadə etmədiyinə görə 26 işçi müvəqqəti olaraq tikinti sahəsindən uzaqlaşdırılmış, təhlükəsizlik qaydalarını kobud şəkildə pozduğuna görə bir işəgötürənə 1000 manat məbləğində cərimə tətbiq olunmuşdur.

Diqqətə çatdırılmışdır ki, sağlamlıq imkanları məhdud şəxslərin tibbi reabilitasiyası məqsədilə Naxçıvan Əlillərin Bərpa Mərkəzində 157 nəfərin, Naxçıvan Uşaq Bərpa Mərkəzində 175 uşağın müalicəsi təmin edilmiş, əzələ-dayaq sistemi xəstəliklərindən əziyyət çəkən sağlamlıq imkanları məhdud 10 nəfər Türkiyə Respublikasına müalicəyə göndərilmişdir. Müvafiq dövr ərzində 66 nəfərə protez-ortopedik xidmət göstərilmiş, 101 nəfər müxtəlif texniki reabilitasiya vasitələri ilə, 64 nəfər sanatoriya və pansionatlara göndərişlərlə, müvafiq kateqoriyadan 10 nəfər minik avtomobili ilə təmin edilmişdir. Bununla yanaşı, 488 tənha ahıl və əlilə evlərdə, 19 nəfərə isə Ahıllar Evində sosial xidmət göstərilmişdir.

Nazir bildirmişdir ki, "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı"nın icrası ilə bağlı bir sıra tədbirlər həyata keçirilmiş, 2014-2015-ci tədris ilində məhdud fiziki imkanlı 40 uşaq məktəbəqədər təhsil müəssisəsinə, 79 uşaq ümumtəhsil müəssisələrinin birinci siniflərinə, 179 uşaq isə məktəbdənkənar müəssisələrin dərnəklərinə, musiqi məktəblərinə və idmanın müxtəlif növləri üzrə qruplara cəlb edilmişdir.

Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində yaradılan Distant Tədris Mərkəzinə hərəkət qabiliyyətinin məhdudluğu səbəbindən ümumtəhsil müəssisələrinə gedə bilməyən 19 uşaq tədrisə cəlb olunmuşdur.

Bu dövr ərzində sosial qayğıya ehtiyacı olan 246 şagird məktəbli geyimi və dərs ləvazimatları ilə təmin edilmişdir. Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində görmə qabiliyyəti məhdud şəxslər üçün audio və brayl kitabxanası fondunun zənginləşdirilməsi diqqətdə saxlanılmış, mərkəzdə əmək terapiyası otağı yaradılmış, defektoloji bölmənin təlim məşğələlərinə sağlamlıq imkanları məhdud 48 uşaq cəlb edilmişdir.

Yay tətili dövründə sağlamlıq imkanları məhdud uşaqların asudə vaxtlarını səmərəli keçirmələri üçün 52 uşaq valideynlərinin müşayiəti ilə Ağbulaq İstirahət Mərkəzinə göndərilmişdir.

İclasda işdə buraxılan nöqsanlara da toxunulmuş, qarşıda duran vəzifə və tapşırıqlardan bəhs edilmişdir.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur.

* * *

***İyulun 29-da Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyində keçirilən kollegiya iclasını giriş sözü ilə Gənclər və İdman naziri Azad Cabbarov açaraq məruzə etmişdir.***

Bildirilmişdir ki, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi 2015-ci ilin birinci yarısında öz işini təsdiq olunmuş iş və tədbirlər planına, həmçinin 21 fevral 2015-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində muxtar respublikada bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələrlə bağlı keçirilmiş müşavirədə verilmiş tapşırıqlara uyğun qurmağa çalışmışdır. Ümumilikdə, bəhs edilən dövrdə nazirlik tərəfindən gənclərlə iş üzrə 84 tədbir icra olunmuşdur.

Azad Cabbarov diqqətə çatdırmışdır ki, adıçəkilən müddətdə kütləvi bədən tərbiyəsi və idman üzrə 45 tədbir təşkil edilmiş, bunlardan 2-si beynəlxalq səviyyəli yarış olmuşdur. Nazirlik, muxtar respublikanın idman federasiyaları və aidiyyəti təşkilatlar tərəfindən ümummilli lider Heydər Əliyevin anadan olmasının 92 illiyi ilə əlaqədar muxtar respublikada müxtəlif idman yarışları keçirilmiş, Naxçıvan Şahmat Mərkəzində Beynəlxalq Şahmat Festivalı, Şərur Olimpiya-İdman Kompleksində kikboksinq üzrə Azərbaycan çempionatı, gənclər arasında sərbəst güləş üzrə "Naxçıvan Kuboku" uğrunda beynəlxalq yarış yaddaqalan olmuşdur.



Nazir qeyd etmişdir ki, muxtar respublika idmançıları cari ilin birinci yarımili ərzində, ümumilikdə, 53 medal qazanmışlar ki, bunlardan 30-u Azərbaycan çempionatlarından, 12-si beynəlxalq turnirlərdən, 8-i dünya çempionatlarından, 1-i Avropa çempionatlarından, 2-si isə I Avropa Oyunlarından əldə olunmuşdur. Tanınmış məşqçilərin muxtar respublikaya dəvət edilməsi, yerli məşqçilərin təlimlərdə iştirak etmələri ilə bağlı tədbirlərin keçirilməsi diqqətdə saxlanılmış, Peşəkar Qarışıq Qaydasız Döyüş Növləri üzrə məşqçilər dəvət edilmiş, ağırlıqqaldırma, futbol, şahmat və digər idman növləri üzrə təlim-məşq toplanışları təşkil olunmuşdur. 12-28 iyun 2015-ci il tarixlərdə ilk dəfə olaraq Bakı şəhərində keçirilən I Avropa Oyunlarında muxtar respublikanı təmsil edən boks üzrə Tayfur Əliyev və sərbəst güləş üzrə Hacı Əliyev bürünc medal qazanmışlar.

Azad Cabbarov buraxılan nöqsanlardan da danışaraq bildirmişdir ki, onların aradan qaldırılması üçün məqsədyönlü tədbirlər həyata keçirilməli, idman və gənclər sahəsində tədbirlərin səviyyəsi daha da yüksəldilməlidir.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur.

* * *

***AMEA Naxçıvan Bölməsində 2015-ci ilin ilk 6 ayının yekunlarına dair yığıncaq keçirilib.***

Yığıncağı bölmənin sədri, akademik İsmayıl Hacıyev açaraq bildirib ki, 2015-ci ilin birinci yarısında bölmə əməkdaşlarının 3 monoqrafiya, 1 kitab, 1 tövsiyə, 268 məqalə və konfrans materialı, 8 tezis olmaqla, 281 elmi əsəri nəşr edilib. Hesabat dövründə bölmədə humanitar və ictimai, təbiət və texniki elmlər seriyalarından ibarət olan "Xəbərlər" jurnalının 2 nömrəsi çapdan çıxıb ki, bu nömrələrdə əməkdaşların 60 məqaləsi işıq üzü görüb. 2015-ci ilin birinci yarısında



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan tarixi" çoxcildliyinin hazırlanması və nəşr olunması barədə" Sərəncamına əsasən, İkinci Dünya müharibəsindən günümüzədək olan dövrü əhatə edən üçüncü cildi üzərində işlər davam etdirilib.

Qeyd olunub ki, hesabat dövründə Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu qrant layihələri müsabiqəsində qalib olmuş "Naxçıvan folklorunun toplanması, elmi tədqiqi və nəşri" və "Batabat Astrofizika Rəsədxanasının müasir işıqqəbuledici cihaz və avadanlıqlarla təchiz edilməsi" mövzuları üzrə qrant layihələri çərçivəsində elmi-tədqiqat işləri başa çatıb, bununla bağlı hazırlanmış hesabat müvafiq quruma təqdim edilib. 2014-cü ildə Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişaf Fondu qrant layihələri müsabiqəsində qalib olmuş "Naxçıvan toponimlərinin elmi-linqvistik tədqiqi", "Parabolik və hiperbolik məhdud üç cisim məsələlərinin astronomiyada tətbiqi" mövzuları üzrə tədqiqatlar cari ilin ilk yarısında uğurla icra olunub və hesabatlar Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fonduna təqdim edilib. Həmçinin akademik Tariyel Talıbovun rəhbərliyi ilə Ümumdünya Təbiəti Mühafizə Təşkilatının "Naxçıvan Muxtar Respublikası ərazisində bəbir və qida obyektlərinin monitorinqinin aparılması" mövzusunda beynəlxalq qrant layihəsi istiqamətində elmi-tədqiqat işləri davam etdirilib.

Bölmə sədri hesabat dövründə yol verilmiş nöqsanlara da toxunub, onların tezliklə aradan qaldırılmasının vacibliyini vurğulayıb.

Sonra məruzə ətrafında bölmə əməkdaşlarının çıxışları dinlənilib.

Tədbirə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev yekun vurub.

**Xəbərlər şöbəsi**

# Muxtar respublikanın nazirlik, komitə və təşkilatlarında cari ilin ilk 6 ayının yekunları müzakirə edilir



*Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyində 2015-ci ilin birinci yarısının yekunlarına həsr olunmuş kollegiya iclasını Ekologiya və Təbii Sərvətlər naziri Hafiz Yaqubov açaraq məruzə ilə çıxış etmişdir.*

Bildirilmişdir ki, 2015-ci ilin birinci yarımilində muxtar respublikada mövcud ekoloji vəziyyətin qorunması, ətraf mühitin mühafizəsi, təbii resurslardan səmərəli istifadə olunması məqsədilə dövlət ekologiya siyasəti uğurla davam etdirilmiş, bu sahənin inkişafı məqsədilə bir sıra tədbirlər həyata keçirilmişdir. Belə ki, yaz əkini mövsümündə muxtar respublika ərazisində, ümumilikdə, 250 hektar sahədə meşəsalma və meşəbərpa tədbirləri davam etdirilmiş, yeni meyvə bağları salınmışdır. Yaşıllaşdırma tədbirlərində, ümumilikdə, 217 min ədəd meşə, meyvə və həmişəyaşıl ağaclar əkilmişdir. Nazirlik tərəfindən 43 hektar sahədə yeni meşə massivləri, yaşıllıq zolaqları, meyvə bağları salınmış, 141,3 hektar sahədə ting və toxumla meşəbərpa işləri görülmüşdür. Meşəsalma, meşəbərpa tədbirlərində və yeni meyvə bağlarının salınmasında 155 min ədəd meşə və meyvə tingləri, 1 tondan çox meyvə toxumları əkilmişdir.

Vurğulanmışdır ki, muxtar respublika ərazisində aparılan yaşıllaşdırma tədbirlərində meşə və meyvə tinginə, həmişəyaşıl ağaclara olan tələbatın təmin edilməsi məqsədilə nazirliyin tingçilik təsərrüfatları tərəfindən 7,5 hektar sahədə toxum səpini, tingböyütmə sahələri yaradılmış, 285 min ədəddən çox əkinəyararlı ting yetişdirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 14 fevral 2012-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş “2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”na uyğun olaraq, cari ilin birinci yarımilində muxtar respublika ərazisində 74 hektar sahədə meyvə bağları salınmış və bərpa edilmişdir.

Nazir qeyd etmişdir ki, ilin ilk 6 ayında qanunsuz ov edilməsinə qarşı mübarizə aparılması məqsədilə aidiyyəti orqanlarla birlikdə yoxlama-reydlər keçirilmiş, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq tədbirlər görülmüşdür.

İclasda işdə buraxılan nöqsanlara da toxunulmuş, onların aradan qaldırılması istiqamətində tapşırıqlar verilmişdir.

* * *

*Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyində keçirilən kollegiya iclasında agentliyin baş direktoru Yasin Səfərov məruzə ilə çıxış edərək bildirmişdir ki, muxtar respublikanın enerji təhlükəsizliyinin təmin olunması istiqamətində həyata keçirilən kompleks tədbirlər birinci yarımildə də davam etdirilmişdir.*



2015-ci ilin ilk 6 ayında Kəngərli Rayon Elektrik Şəbəkəsi üçün ikimərtəbəli yeni inzibati bina inşa olunmuş, 35 meqavolt-amper gücl‌ü yeni 110/35/10 kilovoltluq “Qıvraq” yarımstansiyası istifadəyə verilmişdir. Yarımstansiyada əsas elektrik avadanlıqlarının – 25 və 10 meqavolt-amper gücl‌ü transformatorların, 110 kilovoltluq eleqaz açarlarının, ayırıcıların, gərginlik və cərəyan transformatorlarının, 35 və 10 kilovoltluq hücrələrin, idarəetmə və mühafizə qurğularının, akkumulyator batareyalarının quraşdırılması işləri başa çatdırılmışdır.

Babək rayonu ərazisində iki-transformatorlu 1260 kilovolt-amper gücl‌ü 35/10 kilovoltluq “Nehrəm” yarımstansiyasının yeni binasının tikintisi başa çatdırılmış, güc transformatorları quraşdırılmış və yarımstansiya istismara verilmişdir. 90 meqavolt-amper gücl‌ü 132/110 kilovoltluq “Araz” yarımstansiyasında yeni müasir rele mühafizəsi və avtomatika qurğuları, ayırıcı və eleqaz açarlarının quraşdırılmasına başlanılmış, yeni idarəetmə otağının tikintisi başa çatdırılmışdır.

Vurğulanmışdır ki, 2015-ci ilin birinci yarısında muxtar respublikanın ayrı-ayrı yaşayış məntəqələrində, ümumilikdə, 19 yeni transformator yarımstansiyası quraşdırılmış, 51 kilometr uzunluğunda yeni 10 və 0,4 kilovoltluq elektrik verilişi xətləri çəkilmiş, 4,5 kilometr uzunluğunda hava elektrik verilişi xətləri kabel xətləri ilə əvəz edilmişdir. Naxçıvan, Şərur və Culfa transformator təmiri sexlərində 115 ədəd 10/0,4 kilovoltluq transformator təmir edilib şəbəkələrə qaytarılmışdır.

Kollegiya iclasında işdə buraxılan nöqsanlar da təhlil olunmuş, qarşıda duran vəzifələr müəyyənləşdirilmişdir.

Sonra məruzə ətrafında Naxçıvan Modul Elektrik Stansiyasının direktoru Məhərrəm Abbasov, “Biləv” Su Elektrik Stansiyasının direktoru Sahib Zeynalov, Şərur və Ordubad Rayon Elektrik şəbəkələrinin direktorları Mehman Tağıyev və Ramazan Rzayevin çıxışları olmuşdur.

* * *



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyada keçirilən yığıncaqda komissiyanın sədri Etibar Musayev bildirib ki, hesabat dövrü ərzində dövlət qulluqçularının reyestrinin elektron formada aparılması davam etdirilmişdir. İndiyədək 2008 nəfər dövlət qulluqçusunun məlumatları elektron bazaya işlənmişdir. Onlardan 740-nın reyestr məlumatları rəsmi sənədlər əsasında yoxlanılaraq dəqiqləşdirilmişdir.

Dövlət orqanlarında vakant inzibati vəzifələrin tutulması üçün 18 fevral 2015-ci il tarixdə elan edilən müsabiqəyə 351 nəfər sənəd təqdim etmiş, onlardan 75-i müsabiqəni müvəffəqiyyətlə başa vuraraq vakant vəzifələrə təyin olunmuşdur.

Bildirilmişdir ki, muxtar respublikanın daxili işlər və vergi orqanlarında, Dövlət Miqrasiya Xidmətində vakant vəzifələrin tutulması üçün elan edilmiş müsabiqələrin test imtahanları şəffaflıqla keçirilmişdir.

Hesabat dövrü ərzində komissiyanın dövlət orqanları ilə əməkdaşlığı davam etdirilmiş, həmin orqanlarda dövlət qulluğu siyasətinin düzgün həyata keçirilməsi, o cümlədən kadrlarla işin təşkili daim nəzarətdə saxlanılmışdır. Cari ilin ötən 6 ayı ərzində 15 nəfər dövlət qulluqçusu fəxri adlarla və təltiflərlə mükafatlandırılmışdır.

Qeyd edilmişdir ki, bəhs olunan dövr ərzində komissiyada ictimaiyyətlə əlaqələr işi və vətəndaşların müraciətlərinə baxılması da diqqət mərkəzində saxlanılmışdır. 2015-ci ilin birinci yarısında komissiyaya 465 müraciət daxil olmuşdur, bunlardan 44-ü elektron müraciətdir. Bütün müraciətlər araşdırılmış və onlara müvafiq qaydada cavab verilmişdir.

Məruzə ətrafında müzakirələrdə komissiyanın əməkdaşları Arzuman İmanovun, Rafiq Nəcəfovun və Fatma Hüseynovanın çıxışları olmuşdur.



Babək Rayon İcra Hakimiyyətində keçirilən müşavirədə məruzə ilə çıxış edən rayon İcra Hakimiyyətinin başçısı Elçin Hüseynəliyev bildirib ki, Azərbaycan Respublikası Prezidentinin “Naxçıvan Muxtar Respublikasının Babək rayonunda Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında” Sərəncamına əsasən, 7 yaşayış məntəqəsini birləşdirən dairəvi avtomobil yolunun yenidən qurulması işləri birinci yarımildə davam etdirilib. Rayon mərkəzində 5 mərtəbəli 60 mənzilli yaşayış binasında yenidənqurma işləri aparılıb. Qoşadizə kəndində kompleks quruculuq tədbirləri həyata keçirilib.

Müxtəlif istiqamətli quruculuq tədbirlərindən rayonun Yarımca, Xal-xal, Xəlilli, Nehrəm, Cəhri, Qoşadizə, Güznüt, Çeşməbasar, Badaşqan, Nəcəfalidizə, Şıxmahmud, Məzrə, Şəkərabad, Aşağı Buzqov, Gülşənabad, Nəzərabad və Qahab kəndlərinə də pay düşüb.

Vurğulanıb ki, Babək rayonu aqrar bölgə olduğundan burada kənd təsərrüfatının inkişafına xüsusi diqqət yetirilir. 2015-ci ilin məhsulu üçün əkin aparılan 10476 hektar sahədə taxıl biçini başa çatdırılıb.

İcra başçısı rayonun idarə, müəssisə və təşkilatlarının ilin ilk 6 ayındakı fəaliyyətindən də danışaraq deyib ki, bəhs olunan dövrdə rayon Elektrik Şəbəkəsi, Qaz İstismarı İdarəsi, Rabitə Şöbəsi tərəfindən də bir sıra işlər görülüb.

Elçin Hüseynəliyev işdə buraxılmış nöqsanlara da toxunaraq bildirib ki, görülmüş işlərlə yanaşı, qarşıda bir sıra mühüm vəzifələr durur. İstifadə edilmiş qaz və elektrik haqlarının vaxtında və tam toplanması, əmək intizamına əməl olunması, qəsəbə və kəndlərin abad, səliqəli saxlanılması, yeni qurulan tikililərin qorunması, elektrik və qazdan israfçılıqla istifadənin qarşısının alınması üçün reydlərin keçirilməsi, nağdsız ödənişlərin həcminin artırılması və əkilməyən torpaqların əkin dövriyyəsinə daxil edilməsi istiqamətində işlər daha da gücləndirilməlidir.

Məruzə ətrafında çıxışlar dinlənilib.

* * *

*Sədərək Rayon İcra Hakimiyyətində keçirilən müşavirəni icra başçısı Həbib İbrahimov açaraq məruzə ilə çıxış etmişdir.*



O, ilin birinci yarısında görülmüş işlər, qarşıya qoyulmuş vəzifələr barədə danışaraq bildirmişdir ki, Naxçıvan Muxtar Respublikasında geniş vüsət alan tikinti-quruculuq işləri Sədərək rayonunu da əhatə etmiş, son illər bölgədə yeni inzibati binalar və digər infrastruktur obyektləri tikilərək istifadəyə verilmişdir. 2015-ci ilin 6 ayı ərzində Sədərək Rayon Təsərrüfathesablı Tikinti-Quraşdırma İdarəsi tərəfindən 279,5 min manatlıq abadlıq və təmir işləri aparılmış, hazırda rayon uşaq musiqi məktəbi üçün inzibati binanın tikintisi və İcra Hakimiyyətinin inzibati binasının əsaslı təmiri davam etdirilir.

İcra başçısı diqqətə çatdırmışdır ki, bu gün torpaqlardan səmərəli istifadə qarşıda duran əsas vəzifələrdəndir. Rayonun torpaq mülkiyyətçiləri yaradılmış şəraitdən səmərəli istifadə edərək “Kənd təsərrüfatı ili”ndə 3574 hektar sahədə əkin keçirmişlər. Vaxtında həyata keçirilən hazırlıq tədbirləri hesabına 2132 hektar sahədə taxıl biçini optimal müddətdə başa çatdırılmışdır.

2015-ci ilin 6 ayı ərzində yaşıllıq sahələrinə qulluq davam etdirilmiş, Naxçıvan-Sədərək magistral yolunun hər iki tərəfində 3 hektar sahədə bərpa işləri aparılmış, əlavə olaraq rayon ərazisində 3 hektar yeni bağ salınmış, həmin sahələrə 5400 ədəd meyvə tingi əkilmişdir. Ümumiyyətlə, rayon ərazisində 7 min ədəd yerli sortlardan ibarət müxtəlif meyvə ağacları, 1500 ədəd gül kolu və 225 həmişəyaşıl ağac əkilmişdir.

Vurğulanmışdır ki, həyata keçirilən tədbirlər Sədərək rayonunda da yaşayış məntəqələrinin fasiləsiz elektrik enerjisi ilə təmin olunmasına şərait yaratmışdır. İlin ilk 6 ayı ərzində rayon ərazisində müxtəlif gücdə transformatorlar quraşdırılmışdır.

Hesabat dövrü ərzində rayon Məşğulluq Mərkəzi öz işini tələb olunan səviyyədə qurmağa çalışmış, 91 işaxtaran qeydiyyata alınmış və həmin vətəndaşlardan 72 nəfəri daimi işlə təmin olunmuşdur.

İcra başçısı işdə buraxılmış nöqsanlara da toxunmuş, həmin nöqsanların tezliklə aradan qaldırılmasının vacibliyini diqqətə çatdırmışdır.

* * *

*Azərbaycan Respublikası Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsində 6 ayın yekunlarına həsr olunmuş iclas keçirilib.*



İclasda idarənin rəisi Fazil İbrahimov çıxış edərək bildirib ki, Azərbaycan Respublikası Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsinin 2015-ci ilin birinci yarısındakı fəaliyyəti Azərbaycan Respublikası Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsinin Əsasnaməsinə, idarənin təsdiq olunmuş iş planına və digər müvafiq normativ sənədlərə əsasən həyata keçirilib.

Bəhs olunan dövrdə Naxçıvan Muxtar Respublikası Dövlət büdcəsinin gəlirləri 35 milyon 709,3 min manat və ya 112,5 faiz icra olunub.

İlin birinci yarısında Naxçıvan Muxtar Respublikası Dövlət büdcəsinin xərcləri 176 milyon 563,5 min manat və ya 82,3 faiz icra edilib.

Diqqətə çatdırılıb ki, Azərbaycan Respublikası Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsinə 2015-ci ilin birinci yarısında dövlət təşkilatlarından 1-i elektron olmaqla, 39 məktub daxil olub.

2015-ci ilin birinci yarısında təsdiq edilmiş iş planına uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Dövlət büdcəsinin xərclərinə maliyyə-büdcə nəzarəti tədbirləri çərçivəsində idarə tərəfindən 6 müəssisə, idarə və təşkilatlar üzrə təhlil işləri, 4 müəssisə, idarə və təşkilatlarda audit yoxlamaları aparılıb.

Audit zamanı aşkar edilmiş nöqsan və çatışmazlıqların aradan qaldırılması üçün müvafiq təşkilatlara məktub və maliyyə orqanlarına məlumat göndərilmişdir.

İclasda qeyd olunub ki, 2015-ci ilin ikinci yarısında da idarənin əməkdaşları işlərini günün tələbləri səviyyəsində qurmalı, qarşıya qoyulmuş vəzifələrin layiqincə yerinə yetirilməsinə nail olmalıdırlar.

Sonra məruzə ətrafında çıxışlar olub.

**Xəbərlər şöbəsi**

*"TRAVELPLUS.CN" beynəlxalq turizm jurnalı dünyanın bir çox ölkəsində nəşr olunur. 760 min tirajla çap olunan bu jurnal ən çox satılan nəşrlərdən biridir. Jurnalın növbəti nömrəsində ingilis jurnalistlər Sofiye İbbotson və Maks Lovell-Hoarenin Naxçıvan barədə məqaləsini* ***(www.travelandleisurechina.com/index.yl)*** *qəzetimizin oxucularına təqdim edirik.*

# Naxçıvan

Naxçıvan Muxtar Respublikası tərkib hissəsi olduğu Azərbaycan Respublikası ilə quru sərhədə malik deyil. Ermənistan tərəfindən əhatə olunan muxtar respublika 1990-cı ildə Sovet İttifaqından ayrılmışdır.

Bura səfər etmək üçün çətin yer kimi görünə bilər. Ermənistan və Azərbaycan arasında diplomatik əlaqələrin olmaması səbəbindən Ermənistandan bura səfər etmək mümkün deyil. Siz Naxçıvana Bakıdan təyyarə ilə, yaxud İran və Türkiyədən keçməklə avtobus vasitəsilə gələ bilərsiniz. Bura səfər etmək bir az səy tələb edir. Lakin əmin olun ki, burada görməli yerlər çoxdur. **"Vice"** jurnalı Naxçıvanı Azərbaycanın paytaxtı istisna olmaqla, digər bölgələrlə müqayisədə texnoloji cəhətdən daha müasir surətdə inkişaf etdiyinə görə "Qafqaz dağlarının San-Fransiskosu" adlandırmışdır. Buraya səfər edən xarici turistlər macəra istəyən hər kəsin Naxçıvana səfər etməli olduğunu qeyd etmişlər.

Qədim dövrlərdən bəri Böyük İpək Yolunun üzərində yerləşmiş Naxçıvan regionun iqtisadi və mədəni baxımdan inkişaf etmiş nüfuzlu bölgəsi olmuşdur. Yunan coğrafiyaçısı Ptolomey yazır ki, "Naksuana" (Naxçıvan) böyük ölkənin paytaxtıdır. Daha sonra buraya səyahət edənlər şəhərin gözəlliyini, zənginliyini, qalaların möhtəşəmliyini təsvir edərkən, buranın Çingiz xan tərəfindən istilasını da qeyd edirdilər.

Coğrafi mövqeyinə görə orta əsrlərdə də Naxçıvanda ticarət inkişaf etmişdir. Buradakı şəhərlər öz bacarıqlı sənətkarları, xüsusilə dulusçuları, zərgərləri və şüşə qab düzəldən ustaları, eləcə də səsli və simli musiqi alətləri, çox gözəl xalçalar, ipək parçalar və mis qablar da istehsal edən ustaları ilə tanınmışdır. Qeyd olunan məhsulların dünyanın müxtəlif ölkələrinə aparıldığı, hətta bu malların İtaliya və Çin kimi ölkələrdə mükafatlara layiq görüldüyü qeyd olunmuşdur.

Sovet İttifaqının süqutundan sonra Ermənistan-Azərbaycan münaqişəsi səbəbindən 1990-cı illərin əvvəllərində blokada vəziyyətinə düşmüş Naxçıvan 4 il ərzində ticari böhran yaşamışdır. Lakin daxili investisiyanın inkişafı nəticəsində burada ümumi daxili məhsul 48 dəfə artmışdır. Hazırda Naxçıvanda süd, ət, buğda, yumurta və yun məmulatları daxil olmaqla, 336 adda məhsul istehsal olunur və Naxçıvan öz ərzaq təhlükəsizliyini tam təmin edə bilir.

Naxçıvan Azərbaycanın qida paytaxtı olma iddiasındadır. Əslində, özünü ərzaqla təminetmə addımları təbii və yerli istehsal maraqları ilə də xarakterizə edilir. Bələdçimin mənə dediyi kimi, "qida olmadan mədəniyyət natamamdır". Xalqın kimliyini bilmək üçün onun mətbəxini tanımalısan. Burada hər növ təzə və dadlı meyvə-tərəvəzlər vardır. Azərbaycanın digər bölgələrindən gələn insanlar böyük xoşbəxtliklə buradakı ət və balın dadından danışırlar və bu məhsullardan dadmaq üçün təyyarə ilə buraya gəlirlər. Naxçıvanda təmiz və içməli su mənbələri vardır. Dağların qoynundan süzülüb gələn bu sulardan yerli araqların istehsalında da istifadə olunur. Yerli əhali bu sularda yuyunmanın insan sağlamlığı üçün yararlı olduğuna inanır. Bakıdan gələn qonaqlar qayıdarkən çantalarında özləri ilə bu sulardan aparırlar.

### *Naxçıvanda harda qalmaq olar*

Siz Duzdağ Hotelində təmiz və sakit bir otaqda gözəl gecələr keçirə biləsiniz. Naxçıvanda hotellərin qiymətlərinin ölkənin digər yerləri ilə müqayisədə fərqli olmasına baxmayaraq, buradakı suit otaqlar xüsusilə valehedici təsirə malikdir.

### *Naxçıvana necə gəlmək olar*

Azərbaycan Hava Yollarının Pekindən, Çin Cənub Hava Yollarının isə Urumçidən Azərbaycanın dənizkənarı paytaxtı Bakıya birbaşa təyyarə reysi vardır. Həmçinin sizin Moskvadan buraya uçmaq imkanınız da vardır. Ölkə daxilində səyahət etmək və Naxçıvana getmək üçün siz daxili təyyarə reyslərindən istifadə edə bilərsiniz. Əgər kiçik büdcə ilə səyahət edirsinizsə, ümumiyyətlə, taksi xidməti daha əlverişlidir. Qeyd olunanlarla yanaşı, ərazidə avtobuslardan və dəmir yolu nəqliyyatından da istifadə etmək olar.

Çin vətəndaşlarından Azərbaycana səfər etmələri üçün viza tələb olunmur. Turist kimi siz Azərbaycana səfər edə və burada 90 gün müddətində qala bilərsiniz.

---

***Müdriklərimiz deyiblər ki, elm və bilik öyrənməyə tələs. Çünki bunlar əldən heç bir zaman çıxmayan miras, bezilməyən yoldaş, insanın bəzəyi və hər bir kəsin bütün ömürboyu möhtac olduğu dəyərlərdir. Bu iki dəyəri əldə etməyin yolu isə təhsildən keçir.***



# Elm və bilik yolunda qətiyyətli addımlarla...

## *Şərur təhsilinin dünənindən bu gününə ekskurs*

Bu gün ölkəmizdə təhsil sahəsində dövlət siyasətinin əsasını təhsilin uzunmüddətli dövr üçün əsas inkişaf istiqamətlərini müəyyən edən milli təhsil konsepsiyası və təhsil sisteminin inkişafını nəzərdə tutan dövlət proqramları təşkil edir. Müasir konsepsiya və proqramların əsas tələblərindən biri də milli-mənəvi və ümumbəşəri dəyərlərə dərindən yiyələnən, onları qoruyan və inkişaf etdirən, geniş dünyagörüşə malik olan, təşəbbüs və yenilikləri qiymətləndirməyi bacaran, təhsil aldığı ixtisas üzrə nəzəri və praktik biliklərə tamamilə sahiblənən, yenilikçi təfəkkürlü mütəxəssislər hazırlanmasıdır. Odur ki, muxtar respublikada bu sahəyə xüsusi diqqət yetirilir, təhsilimizin möhkəm təməllər üzərində qurulmasına şərait yaradılır.

Təhsilsiz insan cilasız aynaya bənzər, təhsilli isə öz azadlığını özü təmin edər. Yaxşı təhsil almış övlad yetişdirmək, o övladı hər hansı bir sahədə uğur qazanan biri kimi cəmiyyətin ən ali təbəqələrindən birində görmək hər bir valideynin ən böyük arzusudur. Təbii ki, dövrün və zamanın tələbləri hər bir gəncin təhsilinə öz müsbət və ya mənfi təsirini göstərir. Dünyanın bəzi ölkələrində yaxşı təhsil almaq üçün yaxşı maddi vəziyyət, bəzi ölkələrində yaxşı şərait tələb olunur. Uşaqların maddi çətinliklər, yararsız infrastruktur üzündən məktəbə gedə bilmədikləri ölkələr də var.Vaxtilə bu fikirlər bizim təhsilimiz üçün də deyilib. Ancaq ötən əsrin doxsanıncı illərinin ortalarından başlayaraq hər şey dəyişilib. Gündən-günə qüdrətlənən dövlətimiz elm, bilik arxasınca gedən hər bir şagirdin, yeniyetmənin və tələbənin qarşılaşdığı hər bir çətinlikdə onun yanında olub. İndi kənardan universiteti xatırladan orta məktəblərimiz də var, təhsilin keyfiyyətində başlıca amillərdən olan ən müasir texnologiyalar da. Naxçıvan şəhərindən tutmuş ucqar dağ kəndlərinə qədər hər bir yaşayış məntəqəsi təhsil quruculuğu sahəsində həyata keçirilən tədbirlərdən bəhrələnib. Şərur rayonunda son illərdə bu sahədə görülən işlərin miqyası buna əsaslı sübutdur.

Beləliklə, Şərur təhsilinə doğru açılan pəncərədən keçmişə boylanıb bu günün qapılarını açırıq. Sonsuz bir maraqla "Bu günümüzdə nələr var?"– deyib yolumuzu rayon geniş, işıqlı siniflərlə, ən müasir avadanlıqlarla təchiz edilən məktəblərindən salır, təhsil işçiləri ilə, qocaman və gənc pedaqoqlarla rayon təhsilinin indiki vəziyyəti, perspektivlər, vəzifələr haqda söhbət açır, müəllim fikrinin, müəllim düşüncəsinin işıq saldığı məsələləri müzakirə edirik.

Uzun illər uşaqlara elmin sirlərini öyrədən Muğanlı kənd tam orta məktəbinin direktoru, Azərbaycan Respublikasının Əməkdar müəllimi İsa Hüseynovla söhbət zamanı öz təcrübəsindən yola çıxaraq deyir ki, səriştəli, peşəkar pedaqoq olmaq üçün müntəzəm axtarışda olmaq, oxumaq, öyrənmək lazımdır. Hər bir təhsil işçisi, müəllim yadda saxlamalıdır ki, insana xas olan qüsurların ən pisi qeyri-peşəkarlıqdır. Müəllim elə bir insan – mütəxəssis olmalıdır ki, uşaqlar, gənclər ondan öyrənməyə can atsınlar. Təsadüfi deyil ki, xalq belə bir deyim formalaşdırıb: "Müəllim o kəs deyil ki, öyrədir, o kəsdir ki, ondan öyrənirlər". Burada bilik, bacarıq, peşəkarlıqla yanaşı, etik normalara riayət edilməsi nəticəsində formalaşan müəllim nüfuzunun da böyük rolu vardır. Sevindirici haldır ki, rayon təhsili üçün intibah dövrü sayılan son 20 ildə Şərur məktəblərində təlim-tərbiyəsi etibar olunan uşaqların gələcək taleyi üçün yüksək mənəvi məsuliyyət nümayiş etdirən müəllim təbəqəsi formalaşıb. Bunun əsas səbəblərindən biri də müəllim əməyinə dövlətimiz tərəfindən verilən yüksək qiymətdir.

Son illərdə Şərur rayonunda 35 yeni məktəb binası tikilib və yaxud əsaslı təmir olunduqdan sonra şagirdlərin istifadəsinə verilib. Təkcə 2014-2015-ci tədris ilində 198 şagird yerlik Axura, 198 yerlik Dizə, 88 yerlik Diyadin məktəbləri üçün binalar tikilərək şagirdlərin ixtiyarına verilib. Cəlilkənd tam orta məktəbinin binasında əsaslı təmir işləri aparılıb. Rayonun Kürkənd məktəbi də öz qapılarını müəllim və şagirdlərin üzünə açıb. Bu gün rayon məktəblərində 793 kompüter işlək vəziyyətdədir və onlardan 642-si internetə qoşulub. Məktəblərdə 127 elektron lövhə quraşdırılıb. Bu tədris ilində məktəb kitabxanalarına 4200 bədii ədəbiyyat verilib. Bütün bunlar qazanılan nailiyyətlərin təməlini yaradan işlərdir.

Ümumtəhsil məktəblərinin maddi-texniki bazasının gücləndirilməsi və həyata keçirilən digər tədbirlər təhsilin səmərə və keyfiyyətinin yaxşılaşdırılmasına öz təsirini göstərir. Belə ki, 2015-ci ildə tam orta məktəbləri bitirən 664 nəfərdən 3 nəfəri qızıl medala, 2 nəfəri isə gümüş medala layiq görülüb. Ali və orta ixtisas məktəblərinə sənəd verən məzunların sayı bu il 508 nəfərə çatıb ki, bu da ümumi məzunların 76,5 faizini təşkil edir. Aparılan təhlillər onu deməyə əsas verir ki, təhsil sahəsində nəticələr ötən ildəkindən daha da sevindiricidir. Rayon üzrə yüksək nəticə göstərən 47 nəfər məzundan 13 nəfəri I qrup üzrə, 9 nəfəri IV qrup, 5 nəfəri II qrup, 20 nəfəri isə III qrup üzrə yüksək bal toplayıblar. Sevindirici haldır ki, I qrup üzrə Zeyvə kənd tam orta məktəbinin məzunu Əli Allahverdiyev 700 bal toplayaraq ölkə üzrə rekord nəticə əldə edib. III qrup üzrə Kürkənd tam orta məktəbinin məzunu Təranə İsmayılova 692 bal, IV qrup üzrə Alışar kənd tam orta məktəbinin məzunu Elşən Cəfərov 686 bal toplayaraq Azərbaycan üzrə ən yüksək nəticə əldə edən məzunlar sırasında yer tutublar.

Şagirdlərin vətənpərvərlik ruhunda tərbiyə olunmasına ciddi diqqət yetirilir. Çünki bu günün gənci bilməlidir ki, Vətən bizə ata-baba əmanətidir. Onu qorumaq da bizim vəzifəmizdir. Bu məqsədlə məktəblərdə ənənəvi olaraq keçirilən "Cəsurlar", "Şahin", "Sərhəd" hərbi-idman və turizm oyunlarında məktəblilər fəal iştirak edirlər. Bu gün tam orta məktəblərin pedaqoji kollektivlərinin qarşısında gənc nəslin hərbi-vətənpərvərlik ruhunda tərbiyəsi sahəsində məsul və təxirəsalınmaz vəzifələr qoyulması heç də təsadüfi deyildir. Bu sahədə Şərur rayonunun məktəblərində toplanan qabaqcıl təcrübə hərbi-vətənpərvərlik tərbiyəsini daha məzmunlu və məqsədəuyğun şəkildə aparmağa imkan verir. Rayonun pedaqoji kollektivləri hərbi-vətənpərvərlik tərbiyəsinin forma və üsullarından istifadə etməklə ona nail olmağa çalışırlar ki, həqiqi vətənpərvərliyin məzmununu şagirdlər düzgün dərk edə bilsinlər.

Fiziki tərbiyə və idman dövlət üçün mühüm əhəmiyyət kəsb edən məsələlərdən biridir. Bu gün muxtar respublikanın bütün bölgələri kimi, Şərur rayonunda da yeniyetmə və gənclərin idmanla məşğul olması üçün əlverişli şərait yaradılıb, şagird və tələbələr arasında idmanın müxtəlif növlərinə maraq xeyli artıb. Hazırda rayonun bütün məktəblərində şahmat fənni tədris olunur. Ötən müddət ərzində aparılan müşahidə və təhlillər göstərib ki, şahmat fənninin tədrisi şagirdlərin böyük marağına səbəb olmaqla, onların idraki fəallığını xeyli artırır, düşünmə qabiliyyətlərini gücləndirir. Bütün bunların nəticəsində şagirdlərin digər fənlər üzrə göstəriciləri də nəzərəçarpacaq dərəcədə yüksəlib. Fənnin tədrisi sahəsində qazanılan uğurlar şahmat təliminin daha yüksək səviyyədə davam etdirilməsinə və şahmatın əhatə dairəsinin genişləndirilməsinə etibarlı zəmin yaradır.

Ulu öndərimiz Heydər Əliyev deyirdi: ***"Asudə vaxt problemdir, bunun həll edilməsi ailə və şəxsiyyətin, kollektivin və bütövlükdə cəmiyyətin mənəvi sağlamlığını möhkəmləndirməyə kömək edir".*** Bu baxımdan məktəblilərin asudə vaxtının düzgün qurulmasında məktəbdənkənar təhsil müəssisələrinin böyük rolu vardır. Rayon Təhsil Şöbəsinin nəzdində 6 məktəbdənkənar müəssisə – Uşaq-gənclər idman məktəbi, Texniki Yaradıcılıq Mərkəzi, Ekoloji Tərbiyə Mərkəzi, Uşaq-gənclər şahmat məktəbi, Turist-Diyarşünaslıq Mərkəzi, Uşaq-Gənclər Yaradıcılıq Mərkəzi fəaliyyət göstərir, məktəblilərin asudə vaxtının səmərəli təşkilinə öz töhfələrini verirlər.

"Ekoloji biliklərin mənimsənilməsi də uşaqlara təbiəti daha yaxşı tanımalarında və sevmələrində, ətraf mühiti qorumalarında və beləliklə, gələcəkdə baş verə biləcək ekoloji təhlükələrin qarşısının alınmasında kömək edəcəkdir". Bunu rayon Ekoloji Tərbiyə Mərkəzinin direktoru Vaqif Cabbarov deyir. Onun Şərur rayonunda təhsilin inkişafı ilə bağlı dediklərindən: – Son 20 ildə muxtar respublikada, eləcə də Şərur rayonunda təhsilin keyfiyyətlə həyata keçirilməsi üçün yeni məktəb binaları tikilib, zəruri infrastruktur yaradılıb. Onu da deyim ki, istedadlı uşaqlar üçün inkişafetdirici proqramların tətbiqinə başlanılması rayon təhsilində yeni bir mərhələnin əsasını qoyub. Rayon məktəblərində elektron təhsilin tətbiqi əhəmiyyətli şəkildə genişləndirilib, müəllim və şagirdlər üçün virtual öyrənmə mühiti formalaşdırılıb. Sözsüz ki, bütün bu amillər, son nəticədə, rayonda təhsilin inkişafına xidmət edir. Məktəblilərə bu fikirlər aşılanır ki, dövlətimiz tərəfindən çəkilən xərclər o məqsədi daşıyır ki, sabah gənclərimiz dövlətimiz və cəmiyyətimiz üçün faydalı insanlar olsunlar.

Şərurda təhsilin inkişafı ilə bağlı rayon Təhsil Şöbəsinin əməkdaşı, şair-publisist İbrahim Yusifoğlu deyir ki, məktəbli və müəllimlər üçün rahat, işıqlı siniflər, fənn kabinələri yaradılıb. Ən yeni texnologiyalar bilik öyrədənlərin və öyrənənlərin ixtiyarına verilib. Şagirdlərə isti və işıqlı siniflərdə dərs keçilir. Uçuq-sökük, qaranlıq, qapı-pəncərəsi qırıq, soyuq və şəraitsiz məktəblərdən, bu məktəblərə aparan palçıqlı yollardan əsər-əlamət qalmayıb. Bütün bunların qarşılığında isə zəif oxumağa uşaqların mənəvi haqqı yoxdur. Ona görə də bu günün məktəblisi öz üzərində səylə çalışmalı, oxumalı, öyrənməlidir. Vaxtilə milli maarifçilik hərəkatının öncülləri olan Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundzadə, Həsən bəy Zərdabi, Seyid Əzim Şirvani, Mirzə Şəfi Vazeh, Cəlil Məmmədquluzadə, Ömər Faiq Nemanzadə, Mirzə Ələkbər Sabir, Abbas Səhhət, Məhəmməd Tağı Sidqi, Firidun bəy Köçərli və digər görkəmli şəxsiyyətlərin insanların təhsil almasında gördükləri işlər, çəkdikləri əziyyətlər əsl fədakarlıq və vətənpərvərlik nümunəsidir. Muxtar respublikada, eləcə də Şərur rayonunda təhsil sahəsində qazanılan nailiyyətlər bir daha göstərir ki, o fədakarlıqlar indi də davam etdirilir. İndi bu fədakarlıqlar təkcə ayrı-ayrı şəxslər tərəfindən deyil, dövlətimiz, təhsilimizin qayğısına qalan rəhbərimiz tərəfindən edilir. Bu da gələcəyimizin daha etibarlı əllərdə olacağına əminlik yaradır, daha xoş sabahlara təminat verir.

***"Əgər düzgün fikri tez-tez təkrar etsən, o, öz təsir gücünü itirər", – deyirlər. Ancaq Şərur rayonunda təhsilin inkişafına göstərilən dövlət qayğısını, əldə olunan uğurları, təhsil işçilərinin fədakarlığını gördükdən sonra, necə deyərlər, bu fikirlə razılaşa bilmirəm. Rayonda gördüklərimdən sonra məndə "Gələcəyimiz etibarlı əllərdədir, parlaqdır, işıqlıdır" fikri formalaşıb. Bu fikri isə nə qədər təkrar etsəm, öz təsirini itirə bilməz. Çünki fikirlərimin arxasında konkret faktlar, təhsilimizi intibaha qovuşduran addımlar, ucqar dağ kəndlərimizdəki möhtəşəm məktəb binalarının timsalında əzmkarlıq nümunələri dayanır.***

**Səbuhi HÜSEYNOV**

*Yazı "Naxçıvan: müstəqillik illərində" gənclər arasında yaradıcılıq müsabiqəsinə təqdim olunmaq üçündür*

***Batabat.*** *Oğuz övladlarının – Beyrəklərin, Banuçiçəklərin, Fərhadların, Şirinlərin, Nigarların, Nəbilərin, Həcərlərin qılınc oynadıb, at minib ov ovladıqları, qurşaq tutduqları yurd yerlərimizdən biri. Ordubad elinin başı üstündən başlayıb Batabatdan Sədərəyə kimi halay vuran Naxçıvan dağları sanki igidlər kimi çiyin-çiyinə verib bu yurdun keşiyini çəkirlər. Bəlkə də, onların əzəmətli duruşudu, qaya baxışıdı Dədə Qorqud övladlarının qanına, canına hopub. Bəlkə bu qüdrətin sayəsində çomaq dövründən raket dövrünə kimi yurdumuza hücum çəkən yağı düşmənlər həmişə diz çöküblər.*

*El yaylağa qalxıb*

# Buz bulaqlı, xalı çəmənli Batabat yaylaqları



Naxçıvan dağlarının ovcunda onlarla güllü-çiçəkli, buz bulaqlı, xalı çəmənli yurd yerlərimiz var. Onlardan biri də Batabat yaylağıdır. Bu yaylağın çal-çağırını, növrağını neçə illər fitnə-fəsadlı ermənilərin işğalçılıq planları pozsa da, indi gözəlliklər oylağı olan bu yurd yerinin qonaq-qarası kimi, obaları da çoxalıb. Dağları mehman qəbul edən bu yurd yerinin hər guşəsi bir obanın məskənidir. Dağın o üzündə qurd kimi məqam gözləyən düşmənlərimizdən nə qorxan var, nə də onları düşünən var. Çünki milli ordumuzun əsgərləri səngərlərimizdə gecə-gündüz ayıq-sayıq keşik çəkirlər. İqtisadi qüdrəti artan dövlətimizin hərbi qüdrəti qarşısında yenildiyini hiss edən erməni də Batabat aşırımının o üzündə bəlkə yenə də qan tökmək üçün fürsət axtarsa da, qınına çəkilməyə məcbur olub. Batabat yaylağında oba quran sədərəkli, kəngərlili, şərurlu, culfalı, şahbuzlu heyvandarlar, çobanlar, naxırçılar, sahmançılar buz bulaqların başında çadırlar qurur, kənd təsərrüfatının inkişafına öz töhfələrini verirlər. Bu obalarda yayın ilk ayından – iyun ayından məskən salanlar ta sentyabr ayına kimi bu yurd yerinin gözəllikləri ilə nəfəs alır, təbiətin əsrarəngiz mənzərəsinin hər anının şahidi olur, otlaqlarda bəslənən qoyun-quzudan bol məhsul götürürlər. "Əyri qar"ın başından sübhün gözü açılar-açılmaz boylanan Günəşin şəfəqlərindən, yolların kənarlarında insan oğluna gəl-gəl deyən güllərin, çiçəklərin qönçə dodağının təbəssümündən, bulaqların zümzüməsindən, göllərin qırçın ləpələrinin təranəsindən pay alan bu zəhmət adamları el varını göz bəbəyi kimi qoruyurlar. İndi qonaq-qarası çoxdur Batabatın. Sıldırım dağların bircə aşırım o tərəfindəki düşmənin varlığı belə, əvvəllər olduğundan fərqli olaraq indi heç kəsin yadına düşmür. Bu yerlərin, obaların gözəlliyinə qənim kəsilən qurd xislətli qarı düşmənə Batabatın belə çal-çağırlı günləri də gözdağıdır.

Ömrünü obada, ormanda keçirən bir el çobanı öz xatirələrini danışaraq keçmişlərdəki oba günlərini yada saldı. Bildirdi ki, illər öncə obaların sakinləri üçün yaylaqlarda şənliklər keçirilərdi. "Nəbi səngəri"ndə, "Fərhad evi"ndə əks-səda verib dağlara yayılan cəngi sədasından sonra nağara, qara zurna və sazın səsindən dağlar, dərələr elə bil azmanlaşar, çiçəklər bir az da gözəlləşər, təbiət sanki cilvələnərdi. Mədəniyyət işçiləri maraqlı konsert proqramı ilə çıxış etməmişdən bir gün əvvəl obaya xəbər yayılardı. Ehey..! Xançoban, Bəyçoban haradasınız? Obalara, oymaqlara xəbər verin. Görüşümüzə gələn olacaq. Qaraca Çobanın çoban dədəsinin səsi ətrafa yayılardı. "Duman, gəl, get bu dağlardan" deyə çobanlar da rəqs edər, sağıcılar, sahmançılarla bir yerdə günümüzü istədiyimiz kimi keçirərdik. Elə həmin illərdə keçirilən belə şənliklərdə "Alçalı" bulaqda, "Ərikli"nin dolaylarında, "Turşsu"da, "Qara yoxuş"da qədim türk yaylaqlarında erməni çobanları da bizə qoşulardılar. Nə bilərdik ki, onlar bizim qonaqpərvərliyimizdən istifadə edib isti aşımıza su qatacaqlar. Ancaq atalarımız demişkən, qonşuya quyu qazanın özü düşər. Onlar da əməllərinin cəzalarını bu gün yoxsulluqla, səfalətlə, aclıqla çəkirlər. Bizsə, yenə yurdumuzun sahibi və sakinləriyik. Çünki ulu öndər Heydər Əliyev elə bir dövlət qurub ki, onu hər istəyən yıxa bilməz. Naxçıvanda da onun qüdrəti ilə bir qarış yurd yerinə belə murdar erməni ayağı dəymədi. Sərhəd kəndlərimiz inkişaf etdi, sərhədlərimiz göz bəbəyi kimi qorundu. Bu, indi də belədir. Ona görə biz arın-arxayın elin var-dövlətini bu yaylaqlara gətirir və bir neçə ay ərzində ürəyimiz istəyən qədər yağ, süd, pendir, ət istehsal edə bilirik. Mal-qaramız da ki həm sağlam, həm də gümrah olur…

Nədən bunu xatırladım, bilmirəm. Amma inandığım o idi ki, indi Şahbuz rayonunun dağlarında 40-a yaxın obanın olması, el varının o dağlara qaldırılması səngərlərimizin möhkəm qorunmasından, yağı düşmənin öz qınından çıxa bilməməsindən xəbər verən amildir.

Qısa zamanda da olsa, ulu öndər Heydər Əliyevin yurdumuza gəlişinə kimi güllə səslərindən diksinən yaylaqlarımızın gözəlliklərinə "kənardan" baxmağa məcbur olmuşduq. Gözü yollarda qalan dağların qonaq-qarasının ayağı bu yerlərdən kəsilmişdi. Hələ burnu ovulmayan düşmənin əl-ayaq açdığı o günlərdə qurbanlar da verdik, şəhidlərimiz də oldu. Amma bir qarış yox, bir barmaq boyda belə elimizdən, obamızdan, torpağımızdan keçmədik. Elnən gələn dərd toy-bayramdır deyib, inandıq ki, dar günün ömrü azdır. İnamımız gerçək oldu. Şükürlər olsun ki, o günlər arxada qaldı. İndi vaxtında, vədəsində el yaylağa qalxır, oba qurur, yurd salır, təbii sərvətlərimizdən gen-bol istifadə edilir. Bunun əsas səbəbi də ulu öndərin yolunu muxtar respublikamızda ardıcıl və məqsədyönlü şəkildə davam etdirən muxtar respublika Ali Məclisinin Sədri cənab Vasif Talıbovun aranımıza, yaylağımıza, sərhəd və dağ kəndlərimizə, ən ucqar yurd yerlərimizə yenidənqurma, inkişaf, tərəqqi ruhunu bəxş etməsidir. Bu ruh insanlarda torpaq, yurd, ocaq sevgisini gücləndirib. Çünki o yurdlar, o yuvalar sevgiyə, istəyə layiq bir formaya salınıb.

Ağsaqqalla söhbətim zamanı elə bildim qulağıma qara zurnada çalınan çoban bayatısının sədaları gəldi. Xatırladım ki, ötən illərdə bura gəldiyim zaman obaların birinin qənşərində bir gənc rəssamla rastlaşmışdım. O, əlindəki rəngli qələmlərlə bir əlçim kağızda nəsə çəkirdi. Gördüm ki, kiçik kağız parçasından qartal baxışlı, dağ vüqarlı və əlində avtomat olan bir gənc rəsmdə sanki mənə sarı boylanır. Elə bil ki, əlisilahlı bu oğlan gözlərini dağların gədiklərinə zilləmişdi. Onda qeyri-ixtiyari mən də çevrilib o dağlara baxmışdım. Elə bu vaxt gənc rəssam demişdi ki, qorxmayın, o gədiklərdə indi şəkildə gördüyünüz kimi əlisilahlı əsgərlərimiz durublar. Gecə-gündüz səngərlərimizi qoruyur, sinələrini Vətən torpağına sipər edirlər.



*Yaşamaq, yaratmaq üçün hər bir şəraitin olduğu yurd yerlərimizdə məskən salanların, ev-eşik quranların sayı günbəgün artır. Şəxsi təsərrüfatlardakı mal-qaralar, arı ailələri, ev quşları günbəgün çoxalır. Aranın, yaylağın dəyərini bilən zəhmət adamları dolanışığın yolunu da yaxşı bildiklərindən öz işlərini özləri qururlar. Bu gün onlar Batabat kimi gözəlliyi gözoxşayan təbiətin gözəllik guşələrində yerli məhsulların istehsalı ilə məşğuldurlar. Onlara qolunuza qüvvət deyib, yazımı bu məqamda bitirmək istəyirəm.*

**Şəhla NƏBİYEVA**

***Yay mövsümünü Şahbuz, Şərur, Culfa və Ordubad yaylaqlarında keçirən heyvandarlara, onların ailələrinə səhiyyə xidmətinin təşkili üçün Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi xüsusi həkim briqadaları yaratmış, həmin briqadaların mövsüm ərzində daim yaylaqlara getməsi, burada müvəqqəti yaşayan əhalinin sağlamlığının qorunmasına xidmət etməsi təmin olunmuşdur.***

## Batabat yaylağı, Biçənək və Gülüstan kəndlərində profilaktik tibbi müayinələr aparılıb

Obalarda yaşayan sakinlərin zəruri dərman həbləri, sarğı materialları ilə təminatı, səhiyyə maarifi işi aparılması, mövsümi xəstəliklər, günvurma, ilan və əqrəbçalmaları, yaralanma zamanı ilk yardım barədə tibbi məsləhətlər verilməsi də diqqətdə saxlanılan məsələlərdəndir.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin çoxprofilli həkim briqadası cari il üçün iş planına uyğun olaraq Şahbuz rayonundakı Batabat yaylağındakı heyvandarlara baş çəkmişdir. Bu yerlərin etibarlı müdafiəsi, sərin havası, buz bulaqları, zəngin bitki örtüyü heyvandarlıq üçün əlverişli olduğundan buradakı obaların sayı ildən-ilə artır. Hazırda təkcə "Qaraçuq" yaylağında 6 oba məskən salıb. Onların öhdəsində 4,3 min başdan çox qoyun-quzu var. Çadırlarda fermer və çobanlarla yanaşı, onların 11 ailə üzvü yaşayır.

Həkim briqadası tərəfindən onların hamısı profilaktik tibbi müayinəyə cəlb olunmuş, ilkin tibbi yardım üçün dərmanlar paylanmışdır. Yaylaqda arana nisbətən havaların sərin keçməsi səbəbindən obalardakı azyaşlı uşaqların bir qismində qulaqağrısı və yuxarı tənəffüs yollarının patologiyası müşahidə olunmuş, onların müalicəsi ilə bağlı dərmanlar verilmişdir.

Obalarda müayinələr mövsüm boyu davam etdiriləcəkdir. Nazirliyin çoxprofilli həkim briqadası ötən şənbə Şahbuz rayonunun Biçənək kəndində də olmuş, həkim ambulatoriyasında əhalini profilaktik müayinələrdən keçirmişdir. Yüksəkixtisaslı həkimlərdən ibarət briqada kənd ambulatoriyasının tibb işçilərinin də fəal iştirakı ilə gün ərzində 22 terapevtik, 27 pediatrik, 14 ginekoloji, 12 cərrahi müayinə aparmışdır. Aşkar olunan xəstələrin müvafiq səhiyyə müəssisələrində dərin tibbi müayinələrə cəlb edilməsi məsləhət görülmüş, onlara ambulator kartlar açılmışdır. Üç nəfərdə hipertoniya, 1 nəfərdə xroniki beyin qan dövranı çatışmazlığı, 1 uşaqda anemiya, 1 uşaqda revmatizm aşkar edildiyindən dispanser qeydiyyatına götürülmüş, kənd üzrə dispanser qeydiyyatında duran xroniki xəstələrin sayı dəqiqləşdirilmişdir. Əhali arasında ürək-damar, yoluxucu, dəri-zöhrəvi, şəkərli diabet, onkoloji, vərəm, göz, ginekoloji xəstəliklər, günvurma, ilançalma, əqrəbsancma zamanı ilkin tibbi xidmət, uşaqların düzgün qidalanması barədə səhiyyə maarifi işləri aparılmış, xəstəliklərin profilaktikası ilə bağlı tibbi məsləhətlər verilmişdir.

Ötən şənbə günü Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının pediatr, oftalmoloq, stomatoloq, nevropatoloq, endokrinoloq və laborantlardan ibarət həkim briqadası isə Culfa rayonunun Gülüstan kəndində uşaqlara profilaktik tibbi xidmət göstərmişdir. Briqada 18 yaşadək olan 53 nəfəri profilaktik müayinədən keçirmiş, 50 valideynlə səhiyyə maarifi işi aparmışdır. Dispanserizasiya işinin düzgün təşkili, peyvəndlərin təqvim üzrə aparılması, tibbi sənədləşmənin həyata keçirilməsi üçün həkim ambulatoriyasının tibb bacılarına metodik məsləhətlər verilmişdir. Xəstələr pulsuz dərman və sarğı materialları ilə təmin olunmuşlar.

***Naxçıvan Muxtar Respublikası***
***Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Stolüstü tennis bölməsi fəaliyyətə başladı

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin nəzdində stolüstü tennis idman növü üzrə bölmə fəaliyyətə başlayıb. Naxçıvan şəhərindəki Üzgüçülük Mərkəzində həftənin 1, 3 və 5-ci günləri oğlan qruplarına, 2 və 4-cü günləri isə qız qruplarına stolüstü tennisin qaydaları öyrədilir.

Məşqçi Vüqar Tağıyev söhbətində yeni yaradılan bölmə haqda dedi: "Bölməmiz lazımi idman avadanlıqları ilə təmin edilib. Üzgüçülük Mərkəzində yeni tennis stolları quraşdırılıb və bu növlə məşğul olmaq istəyənlər üçün hərtərəfli şərait yaradılıb. İki gündür məşqlərə başlamağımıza baxmayaraq, artıq 20-dən çox yeniyetmə və gənc bölməyə yazılıb. Gənclər və İdman Nazirliyinin əsas məqsədi bu idman növünə olan marağı idman ictimaiyyəti arasında kütləvi hala gətirməkdir".

Qeyd edək ki, stolüstü tennis idman növü ilə məşğul olmaq istəyənlər Naxçıvan şəhərindəki Üzgüçülük Mərkəzinə müraciət edə bilərlər.

## Culfa rayonunda kross birinciliyi və...

Məktəblilərin yay tətilində asudə vaxtlarının səmərəli keçirilməsi məqsədilə Culfa şəhər mərkəzi futbol meydançasının qaçış zolağında "Zərərli vərdişlərə "yox" deyək, həmişə sağlam olaq" devizi altında yüngül atletikanın kross növü üzrə rayon birinciliyi keçirilib. 800 və 1500 metr məsafələr üzrə keçirilən yarışda 60-a yaxın idmançı iştirak edib. Culfa Rayon Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi və Uşaq-gənclər idman məktəbinin birgə təşkil etdiyi birinciliyin yekun nəticəsinə əsasən, 800 metr məsafədə Cəlal Məmmədov bütün rəqiblərini qabaqlayaraq qalib adını qazanıb. Bu məsafədə Ayxan Abbasov və Həsən Həsənli digər iki pillədə qərarlaşıblar. 1500 metr məsafədə isə Elgün İmanov finiş xəttinə birinci çatıb. Elsevər Məmmədov və Məhəmməd Quliyev isə müvafiq olaraq ikinci, üçüncü pillələri bölüşüblər.

Qalib və fərqlənən iştirakçılara təşkilatçılar tərəfindən diplomlar təqdim edilib.

### …voleybol üzrə yoldaşlıq görüşü keçirilib

Rayonda həmin deviz altında təşkil edilən tədbirlərdən biri də Əbrəqunus kənd tam orta məktəbinin idman zalında baş tutub. Burada Əbrəqunus və Bənəniyar kənd tam orta məktəblərinin komandaları arasında voleybol üzrə yoldaşlıq görüşü keçirilib. Görüşdə Əbrəqunus kənd tam orta məktəbinin komandası rəqibini 3:1 hesabı ilə məğlub edib.

**✍ Ceyhun MƏMMƏDOV**


**ŞƏRQ qapısı**

**Baş redaktor əvəzi:**
**MUXTAR MƏMMƏDOV**

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Əli Cabbarov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 4020. Sifariş № 576